**Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanının 1-ci hissəsini və həmin Fərman ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi əsasnamə"nin 4.1-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurası yaradılsın.

*2. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının üzvlərinin sayı 7 nəfərdən ibarət aşağıdakı tərkibdə təsdiq edilsin:*

***Apellyasiya Şurasının sədri***

*Samir Vəliyev - Azərbaycan Respublikası energetika nazirinin müavini*

***Apellyasiya Şurasının üzvləri:***

*Zaur Məmmədov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının rəhbəri;*

*Rahid Əsədov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Neft-qaz şöbəsinin müdiri;*

*Ələsgər Həsənov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Elektrik və istilik enerjisi şöbəsinin müdiri;*

*İbrahim Ağayev - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Hüquq şöbəsinin müdiri;*

*Rauf Qurbanov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının İqtisadiyyat şöbəsinin müdiri;*

*Əsəd İsmayılov - Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsinin müdiri.*

3. Apellyasiya Şurasının sədri:

3.1. Apellyasiya Şurasının Katibliyinin rəhbəri və tərkibi haqqında təklifləri təqdim etsin.

3.2. "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"dən irəli gələn Apellyasiya Şurasının faaliyyətinin təşkili ilə bağlı digər zəruri tədbirləri görsün.

4. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətini Apellyasiya Şurasının üzvlərinə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**NATİQ ƏLİYEV**
**Azərbaycan Respublikasının energetika naziri**

11 fevral 2016-cı il
№ 02